# ♦Əli Kərim – 90



Min ildən artıq poeziya ənənələri, zəngin ədəbi irsi və nəhayət, nəhəng simaları olan bir ədəbiyyat tarixinə hər yazıçının adı yazılmır. Cəmi 38 il ömür sürmüş, onun da vur-tut 16 ilini şeirə, yaradıcılığa həsr etmiş Əli Kərimə bu – adının klassiklərimizlə bir cərgədə çəkilməsi nəsib oldu. Ölümündən 52 il keçməsinə baxmayaraq, o, yarım əsr bundan əvvəl olduğu kimi bu gün də oxunur və sevilir. Bunun sirri nədədir? Əlbəttə, ilk növbədə istedadının gücündə; sonra səmimiyyətində və bənzərsizliyində.

Əli Kərim əsasən milli poeziya qaynaqlarından bəhrələnsə də, yalnız bununla kifayətlənməmişdi; o, həm də əli çatan qədər dünya ədəbiyyatından da öyrənmişdi. Üstəlik, ustad məktəbi görmüşdü.

Sağlığında Əli Kərimə çox haqsız hücumlar oldu, onu formalizmdə, daha nədə, nədə günahlandırdılar, amma o, yolundan dönmədi; dillər əzbəri neçə-neçə ölməz şeirlərini yazdı, yaratdı.

Şairin 90 illik yubileyi günlərində o şeirlərdən birini yada salmaq istəyirik; 55 il öncə yazılmış bu şeir görün necə də aktualdır.

# DAŞ

Yarıçılpaq
Qədim insan
Düşməninə bir daş atdı,
Qana batdı.
Daş düşmədi
Amma yerə.
Uçub getdi
Üfüqlərdən üfüqlərə.
Deməyin ki daş yox oldu.
Oldu qılınc,
güllə,
mərmi.
Dayanmadı fikir kimi.
Atom kimi
Meridianı qırıq-qırıq,
Arzuları zərrə-zərrə,
Okeanı parça-parça
Edib keçdi…
Həmin o daş
İndi yenə dayanmayır,
uçur hara?
O neytron,
elektron –
Dönüb
nələr,
nələr olur.
Alov olur,
ölüm olur,
zəhər olur.
Ey həməsrim,
Həqiqətin qan qardaşı,
Dayandırmaq olmazmı, de,
Yarıçılpaq,
yarıvəhşi
Qədim insan
atan daşı?!